# Vətən sevgisi, əbədiyyət zirvəsi

**44 günlük Vətən müharibəsi Azərbaycana zəfər sevincini bəxş etməklə yanaşı, xalqımızın qəhrəman oğullarını da bir daha tanıtdı. Neçə-neçə igid oğullar Vətən uğrunda haqq savaşının iştirakçısı, şəhid və ya qazi oldular. Sonunda zəfər çaldığımız bu müharibə Azərbaycan xalqının Vətənə necə bağlılığını, onun üçün gözünü qırpmadan canından keçməyə hazır olduğunu bir daha nümayiş etdirdi. Şəhidlərimizin keçdikləri qısa, şərəfli ömür yolları göstərir ki, onlar bu ən uca zirvəyə güclü iradə, əqidə, xarakter ilə yüksəliblər. Odur ki, Azərbaycanın bütövlüyü uğrunda, torpaqlarımızın qorunmasında canlarından keçmiş şəhidlərimizin ömür yolu bu gün hər kəsə örnəkdir. Bu yolda ucalanların xatirəsini yaşatmaq hər kəsin vətəndaşlıq borcudur. Azərbaycanın elə bir bölgəsi, kəndi tapılmaz ki, orada bir şəhid məzarı olmasın.**

Belə şəhidlərimizdən biri də Əlizadə Elməddin Sübhi oğludur. Elməddin 11 mart 1997-ci ildə Biləsuvar rayonunun Zəhmətabad kəndində anadan olmuşdur. 2014-cü ildə həmin məktəbin 11-ci sinfini başa vurmuş, oxuduğu illər ərzində həm sinif yoldaşlarının, həm də müəllimlərinin böyük sevgisini və hörmətini qazanmışdır. 2015-ci ilin aprel ayında Elməddin SHXÇDX-nin Biləsuvar rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılır və Goranboy rayonunun Tapqaraqoyunlu kəndində yerləşən "N" saylı hərbi hissəsində vətən borcunu yerinə yetirir. Kəşfiyyatçı kimi xidmət edir. Elməddin 2016-cı il Aprel döyüşlərində düşmən hücumunun qarşısının alınmasında Azərbaycanın Milli Qəhrəmanı, şəhid general, 1-ci Ordu Korpusunun Komandir müavini - Qərargah rəisi olan Polad Həşimovun rəhbərliyi altında döyüşlərdə iştirak edir.

Hərbi xidmətini başa vurduqdan sonra Elməddin Bakı Tikiş fabrikində, hərbi geyim formaları tikilən sexdə işə başlayır. O, özü hərbi forma tikir, zövqlə onların dizaynını verirdi. İşində fərqləndiyi üçün bu sahədə də mükafatlandırılır... İlham Əliyevin Sərəncamına əsasən Elməddin Əlizadə ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhidimizin atası Sübhi deyir ki, iki qızım və iki oğlum var, Elməddin də ortancıl oğlum idi. Onun döyüş yolu Ağdamdan başladı və Şuşaya qədər getdi. Sonuncu dəfə noyabrın 6-da danışdıq və dedi ki, "salamatçılıqdı, özünüzdən muğayat olun. Anamı, qardaşımı qoru".

Sübhi ilə qohumluq əlaqəmiz var. Uşaqlıq illərimiz birgə keçib. Hərdənbir rastlaşanda kef-əhvalını soruşmaqla yanaşı övladlarını da xəbər alardım. "Vətən üçün iki oğul böyüdürəm", - deyərdi. Həmin illər təxminən Elməddinin 3-5 yaşlarına təsadüf edərdi. Elməddinin babası Nəsrəddin müəllim isə uzun illər təhsil sahəsində çalışıb. Bu gün isə nəvəsi- dum. İndi torpaqlarımızın işğaldan azad edilməsinə və şəhid babası olduğuma görə başımı dik tuturam. Şəhid ailələrinə, eləcə də qazilərə göstərilən diqqət və qayğıya görə Prezident, Ali Baş Komandan İlham Əliyevə, Mehriban xanıma bir şəhid babası kimi minnətdarlığımı bildirirəm. Digər həmsöhbətim Məhəmməd isə şəhid qardaşı ilə qürur duyduğunu söləyərək hər zaman onunla fəxr edəcəyini bildirir. Çoxlu arzuları var idi. Təəssüf ki... Qisməti şəhidlik imiş...

Azərbaycanın müstəqilliyi uğrunda qəhrəmanlıqla mübarizə aparan, xalqımızın azadlığını üstün tutan, bu yolda həyatlarını qurban verərək şəhidlik məqamına ucalanların xatirəsini hər zaman anmağa borcluyuq. Onların adları, xatirəsi yaddaşlarda əbədi yaşayacaq!!!

**Müşfiq MİRZƏ,**
**"Respublika".**

Respublika.- 2022.- 11yanvar.- S.6.